# BABƏKƏ ƏBƏDİ ABİDƏ

Qədim tarixçilər insan zəkasıyla yaradılmış, dünyanı heyrətə gətirən nadir əsərləri möcüzə adlandırmışlar. Mənə elə gəlir ki, əgər müasir tarixçilər “möcüzəli insanlar” istilahını işlətmək fikrinə düşsələr Babək Xürrəmini onlardan biri hesab edərdilər. Tarix Babəki nəsillərə mərd, cəngavər və əfsanəvi bir şəxsiyyət kimi tanıtmışdır. Cəlal Bərgüşad “Siyrilmiş qılınc” romanını Babək Xürrəminin möcüzəli həyatına həsr etmişdir. “Siyrilmiş qılınc” müəllifin tarixi roman sahəsində ikinci əsəridir. Bir yazıçı kimi onun istedadı ilk tarixi romanı “Bozatın belində” əsərində üzə çıxmışdır. Təsadüfi deyil ki, “Bozatın belində” romanı Türkiyədə “Tərcüman” qəzetində dərc olunub türk oxucularına çatdırılmışdır. Hələ bu tarixi romanlarına qədər Bərgüşadı doğma Azərbaycanın müasir kənd və şəhərlərində qurub-yaradan əmək adamları daha çox maraqlandırmış, onlar barədə silsilə oçerklər, hekayələr yazmışdır. Bununla belə, Cəlal Bərgüşad dünyanın bir çox ölkələrində olmuş, kapitalist aləminin eybəcərliklərini göstərən bir sıra hekayələr dərc etdirmişdir. Ancaq Bərgüşadı həmişə xalqının, vətəninin azadıığı, istiqlaliyyəti yolunda tarixi şücaət göstərən qəhrəmanlar düşündürmüşdür. O, vətəndaş-sənətkar ehtirası ilə oxucusuna xatırlatmaq istəyir ki, sən

böyük bir xalqın oğlusan! Sənin əcdadın Babək olub! Sən Qaçaq Nəbi nəslindənsən! Səni dünyaya Həcər gətirib! Bu işıqlı qəhrəmanlar Cəlal Bərgüşadın yaradıcılığında mühüm rol oynayır və onların bədii ədəbiyyata gətirilməsində atdığı addımlar uğurludur. Müəllif, qələmə aldığı dövrü dərindən öyrənib yaradıcılıq süzgəcindən keçirərək, tarixi hadisələrə bu günün gözüylə baxır və bundan müasir tələblər mövqeyindən oxuculara çatdırır. Məncə Cəlal Bərgüşadı tarixi qəhrəmanlarımızdan yazmağa sövq edən cəhətlərdən biri də budur ki, hər iki xalq qəhrəmanının – Babək Xürrəminin və Qaçaq Nəbinin bir sıra ciddi döyüşləri müəllifin doğulub boya-başa çatdığı Bərgüşad elində, Araz sahilində baş vermişdir. Bunların bir çoxu bu yerlərdə əfsanələr şəklində yayılmış, gənc yaşlarından müəllifin şüurunda, qəlbində silinməz iz buraxmışdır. Bütün bunlarla bərabər, Cəlal Bərgüşad Babək dövrünə aid bir sıra nadir tarixi sənədlərlə tanış olmuş, qəhrəmanın bəzi döyüş qalalarını gəzmiş, o dövrün adət-ənənəsini, elm və mədəniyyətini dərindən öyrənmək üçün çoxlu kitab oxuyur, dəyərli faktlar əldə edib öz romanını yeni materiallarla zənginləşdirmişdir.

Onu da deyim ki, Cəlal Bərgüşad on səkkiz yaşında böyük Vətən müharibəsinə getmiş, dənizdə və quruda bir çox döyüşlərin şahidi və iştirakçısı olmuşdur. Deməli, müharibə səhnələrini canlandırmaq, çarpışmanın real mənzərəsini yaratmaq üçün onun ixtiyarında zəngin müşahidə materialı vardır. Bəlkə buna görədir ki, romanda qəhrəmanların döyüş vaxtı keçirdiyi həyəcanlar təbii və inandırıcıdır.

“Siyrilmiş qılınc” romanını oxuyarkən Cəlal Bərgüşadın əvvəlki “Bozatın belində” romanına nisbətən xeyli püxtələşdiyini görürük. Doğrudan da, Cəlal Bərgüşad uzun illər ağır zəhmət çəkmiş və bu zəhmət hədər getməmişdir. Ro-

manı oxuyarkən adam istər-istəməz o dövrü, xilafətdə cərəyan edən hadisələri göz önünə gətirir... Tarixçilər Abbasilər dövrünü qızıl və intibah dövrü adlandırırlar. Lakin əslində, bu dövr kəskin ziddiyyətlər, soyğunçu müharibələr, qorxunc sui-qəsdlərlə dolu idi. Acgöz Abbasi xəlifələri din pərdəsi altında talançı müharibələrini durmadan davam etdirir, tutduqları ölkələrdə öz ağalıqlarını möhkəmləndirir, işğala məruz xalqlara ağır cəzalar verir, həmin ölkələrdə olmazın cinayətlər törədirdilər. Xilafətin sərhədləri o qədər böyük, o qədər geniş idi ki, xəlifələr artıq onu silah gücü ilə idarə edə bilmirdilər. Xilafətin Çin sərhədində günəş çıxanda Əndəlüsdə (indiki İspaniyada) günəş batırdı. Azadlıq istəyən xalqlar tez-tez Abbasi xəlifələri əleyhinə üsyan qaldırırdılar. Bu üsyanların ən böyüyü və xilafət üçün ən qorxulusu Azərbaycanda baş verirdi. Xilafət qoşunu nə qədər güclü olsa da xalqın iradəsini qıra bilmirdi. Xürrəmilər üsyan zamanı xilafətin müvazinətini pozurdular. Belə qarışıqlıq dövründə xəzərlər şimaldan Azərbaycana hücuma keçib Dərbəndi tutur, Kür sahillərinə qədər yeriyib şəhərləri, kəndləri, obaları talan edir, yerli əhalini qandallayıb dəstə-dəstə xaqana hədiyyə göndərirdilər. Cənubdan isə Abbasi xəlifələri üsyan qaldırmış Azərbaycanın üstünə güclü qoşun göndərirdi. Mücahidlər üsyançı xürrəmiləri qılıncdan keçirir, arvad-uşaqlarını isə əsir edib Bağdadın qul bazarına göndərirdilər. Xəlifənin ən qorxulu düşməni bizanslar da fürsət tapan kimi qərb sərhədlərində qan tökürdülər.

Bütün bu müharibələrin ağırlığı ən çox Azərbaycan xalqının üstünə düşürdü. Azərbaycan yadelli işğalçıların tapdağı altında inləyirdi. Dinc əhali var-yoxdan çıxır, şəhərlər, kəndlər, obalar xarabazara çevrilir, fəlakətə, zülmə, aclığa dözməyən mərd xalqımız dağlara çəkilib yadelli işğalçılara qarşı qılınca sarılırdı.

Dövr qəhrəman istəyirdi! Elə bir qəhrəman ki, qılıncını siyirsin, qələbəyədək qınına qoymasın, bu qılıncın gücü ilə beyinlərə böcək yeridən yaddelli işğalçıları Odlar yurdundan qovsun! Belə bir qəhrəman Mimət nahiyəsinin Bilalabad kəndində dünyaya gəldi. O, Azərbaycan xalqının cəngavər oğlu Babək idi! Babək öz xalqını əsarətdən çıxarıb işıqlı dünyaya qovuşdurmaqdan ötrü dünyaya meydan oxuyan Abbasi xilafətilə iyirmi iki il vuruşmuşdur. Babək "Gil ayaqlı nəhəng"in ayağını iyirmi iki il Azərbaycan torpağından kəsmişdir. Babəkin vuruşmaları, bir sıra parlaq döyüş səhnələri Cəlal Bərgüşadın "Siyrilmiş qılınc" romanında öz əksini tapmışdır.

Babəkin dövrü, qılıncların qına qoyulmadığı bir dövr idi. Xilafətin paytaxtı Bağdadda – Altun sarayında hökmranlıq üstündə gizli və açıq daxili çəkişmələr gedirdi. Vaxtilə xəlifə sarayına yol tapmış nüfuzlu fars əyanları ərəblər tərəfindən darmadağın edilmiş keçmiş Sasani səltənətini yenidən dirçəltmək fikrinə düşmüşdülər. Hətta Xəlifə Harun öləndən sonra onun ərəb qızı Zübeydə xatundan olan oğlu Əminlə, fars qızı Məracil xatundan olan oğlu Məmun arasında böyük mübarizə başladı və nəticədə Məmun öz qardaşı Əminin başını qılıncla vurdurub xəlifə taxt-tacının sahibi oldu.

Cəlal Bərgüşad taxt-tac üstündə gedən bu qorxunc hadisələri incəliklərinə qədər təsvir etmişdir. Romanı oxuyarkən sarayda baş verən faciələri, sanki gözünlə görürsən, Xəlifə Harunun həmişə "qardaş" dediyi baş vəzir Cəfər ibn Yəhyanın ölüm səhnəsindən dəhşətə gəlirsən.

Müəllif, doğma yurdunu yadelli işğalçılardan təmizləyən, xalqını azadlığa çıxartmaq istəyən, əsl insan hüquqlarını müdafiə edən Babəkin ədalətli mübarizələrini dolğun şəkildə verməklə yanaşı, hətta öz qəhrəmanını bir qədər əfsanələşdirməyə də səy göstərmişdir. Adama elə gəlir ki, Babək təkcə

Azərbaycan xalqının havadarı deyil, ümumən bəşərin, haqqın müdafiəçisidir!

Cəlal Bərgüşad Babəki birdən-birə sərkərdə kimi təsvir etməmişdir. Müəllif öz qəhrəmanını müqəddəs atəşgahda dünyaya gətirmiş, Babəkin ayağı yer tutandan onun ləpirinə düşmüşdür. Elə ki, Babək ayaq açdı, sadiqlik mərasimində baş kahin – Möbədi-Möbədan onun belinə yun qurşaq bağladı, o özünü igid sayır, vaxtilə yadellilər tərəfindən qətlə yetirilmiş atası Abdullanın qılıncına sahib olur, Qaraqaşqasının belinə sıçrayıb düşmənə meydan oxuyur: "Atam deyərmiş ki, kimin ki, qılıncı pas atıb, onun sahibi ölüdür!" Hətta bu söz Babəkin siyrilmiş qılıncının qiyəsinə də həkk edilmişdir. O, bir parça çörək üçün kiçik yaşlarında varlı bir kişinin ilxısını otarmış, at belində böyümüş, at belində qanad açmışdır. Yaylım vaxtı öz Qaraqaşqasının yalına sinib tay-tuşlarını arxasınca səsləmişdir. Anası Bəruməndlə Qanlı düzdə yer şumlamış, xürrəmilərin başçısı Şəhrək oğlu Cavidanın dəmirçixanasında xam atları miniyə öyrətmişdir. Sərkərdəsi Cavidanın mühüm tapşırıqlarını yerinə yetirmiş, Təbrizdə böyük var-dövlət sahibi Məhəmməd ibn Rəvvaz Əzdinin emalatxanasında ustaya şagird olub qılınc qayırmışdır. Lap axırda isə məşhur tacir Şibl ibn Munakanın sarbanı olub atası Abdulla kimi bütün xilafəti addımbaaddım dolaşmışdır. Gənc Babək xilafətin hər yerində xəlifə qılıncının törətdiyi asılılıqları, iztirabları, zülmü öz gözüylə görür. Babək məşhur Bəzz qalasının sahibi Şəhrək oğlu Cavidanın köməyilə sərkərdə olur... Bundan sonra, Babək Xürrəmi bir dövlət xadimi kimi xilafətdə tanınır və hətta o, Abbasi xəlifələrini öz xalq ordusu ilə hədələyir. Xilafəti qorxu altında saxlamaq üçün Bizans imperatoru Feofillə müqavilə bağlayır.

Babək oxucunun nəzərində gah cəngavərdir, gah filosof, gah da Atəşgaha sitayiş edən sadə bir xürrəmi. Vətənpərvərlik, həqiqi məslək dostluğu, düşmənə qarşı barışmazlıq, el-obaya bağlılıq, qələbəyə inam eşqi Babəkin ruhuna hopmuşdur. Müəllif, Babəki bir sərkərdə kimi göstərmək üçün bəzi döyüş səhnələrini qəsdən geniş təsvir etmişdir. (Həştadsər, Həmədan döyüşü, Bəzz ətrafındakı vuruşlar və s.) Babəkin yaratdığı intizamlı, döyüşkən, mübariz xalq ordusu Xəlifə Məmunun və Xəlifə Mötəsimin saysız-hesabsız ordusu ilə dəfələrlə üz-üzə gəlir və çox vaxt da qalib çıxır. Nəhayət, Xəlifə Mötəsim ən məşhur sərkərdəsi Afşini, güclü və o zaman müasir təlim görmüş qoşunla Babəkin üstünə göndərir.

Məlumdur ki, keçmiş işğalçılıq müharibələri, əsasən din pərdəsi altında aparılırdı. Abbasi imperiyası da belə yaranmışdır. Cəlal Bərgüşad tarixiliyi nəzərə alıb, saray ilahiyəçiləriIə atəşpərəst kahinləri arasındakı dini-ideoloji mübarizəni dövrün hadisələrilə möhkəm əlaqələndirmişdir. Biz, romanda Babəkin anası Bəruməndlə atəşgaha getdiyini görürük, atəşpərəst kahinin Babəkə verdiyi nəsihətləri eşidirik. Kahin həmişə Babəki başa salır ki, bizim düşmənimiz şər allahı Əhriməndir, dostumuz isə xeyir allahı ulu Hörmüzdür, atəşpərstlərin peyğəmbəri Şirvindir.

Biz, baş kahini – Möbədi-Möbədanı ən ağır döyüşlərdə görürük. Baş kahin döyüşdən əvvəl ulu Hörmüzə yalvarır ki, Babəkin qılıncına qüvvət versin. Atəşpərəstlər Hörmüz yolunda, Şirvin peyğəmbər yolunda döyüşə atılırlar. Hətta Bəzz vuruşlarının birində ağır yaralanmış xürrəmilər vuruş meydanından çıxmırlar. Son çarpışmaların birində isə Babəkin əmri ilə döyüşçülər qılınclarının qınını tonqala atırlar. Bu, o demək idi ki, daha qılınc qına girməyəcəkdir!

Babək dövründə xilafətin paytaxtı Bağdad dünyanın mədəni elm ocaqlarından biri sayılırdı. O zaman buradakı hikmət evində altı mindən çox alim çalışırdı. Altun sarayında da Əbu Nüvvas kimi məşhur şairlər, əl-Kindi kimi açıqfikirli filosoflar fəaliyyətdə idilər... Din və elm aləmində bir-birinə zidd bir sıra cərəyanlar əmələ gəlmişdi ki, müəllif yeri düşdükcə bu cərəyanların əhəmiyyətini göstərir və hətta filosof əl-Kindi ilə öz baş qəhrəmanı Babəki görüşdürür. Bu görüş səhnəsində igid Babəkin dərin idrak sahibi olduğu meydana çıxır. İşğalçıdan söhbət düşəndə Babək filosof əl-Kindiyə belə deyir: "Qoca, böyük başlar günahkardır... Dəryada böyük balıqlar kiçik balıqlara dinclik vermir! İndi xilafətdə bir çox millət az qalıb öz ana dilini də unutsun. Bəli, həqiqətdir bu! Mədrəsəsi olan kəndlərdə tamam rüsvayçılıqdır. Bu kəndlərdə çoban itləri də, naxırçı küçüyü də, ovçu tulası da az qalır saray avazında hürsün".

Romanda təsvir edilən obrazların əksəriyyəti tarixi şəxsiyyətlərdir. Şəhrək oğlu Cavidan, Dombagöz Əbu İmran, Harun, Əmin, Məmun, Mötəsim, şair Əbu Nüvvas, həkim Cəbrayıl, Zübeydə xatun, baş vəzir Cəfər, Hayzurana xatun, İshaq, cəlladbaşı Məcryr, əl-Kindi, Şeyx İsmayıl, Qərənfil, Fənhas, Bərumənd, tacir Şibl, Səhl ibn Sumbat, Müaviyə, Abdulla, Kəldəniyyə və nəhayət, baş sərkərdə Afşin! Böyüklü-kiçikli bu obrazların hər biri öz-özlüyündə bitkindir.

Onu da qeyd etmək lazımdır ki, xəlifələr apardıqları işğalçı müharibələrə, törətdikləri cinayətlərə bəraət qazandırmaq, xalqın gözündən pərdə asmaq üçün özlərinə qəsidələr yazdırır, din yolunda canından keçən mücahidlərini tərifləyir, şəhidlərinin şəninə isə mərsiyə dedirtdirirdilər. Bu məqsədlə Altun sarayına dövrün məşhur şairləri dəvət olunurdu. Əbu Nüvvas həm xəlifə Harun ər-Rəşidin nədimi, həm də sarayın

nüfuzlu şairi idi. Filosof əl-Kindi Xəlifə Məmunun məsləhətçisi idi. Yeri gəldikcə müəllif, ayrı-ayrı fəsillərdə Əbü Nüvvas və başqa şairlərdən lirik parçalar verir, filosof əl-Kindinin kəlamları ilə romanını zənginləşdirir.

Müəllif, obrazlarını fərdiləşdirməkdən ötrü onların hər birini öz dililə danışdırır, həmin obrazlar yeri gəldikcə ərəb, fars və Azərbaycan məsəlləri çəkir, fikirlərini atalar sözləri ilə, hikmətli kəlamlarla bəzəyir, özlərinin milli mənsubiyyətini, siyasi-ictimai mövqelərini nümayiş etdirirlər.

Romanın dili sadə və obrazlıdır.

Hər bir sənət əsəri xalqın mənəvi sərvətidir və bu sərvətin qiyməti onun müasirliyi ilə ölçülür. Cəlal Bərgüşadın "Siyrilmiş qılınc" romanı müasirlik baxımından, xüsusilə qiymətlidir. Yaxın və Orta Şərqdə, planetimizin bir sıra ölkəsində kapitalist ağalarının – qanlı müharibə qızışdırıcılarının hazırkı işğalçılıq siyasətinə ümumbəşər nifrəti baxımından "Siyrilmiş qılınc" aktual romandır.

Tarixdən Babəkin ölümü hamıya məlumdur. Babək qətlə yetirilərkən dünyada misli görünməmiş qoçaqlıq göstərir. Cəlal Bərgüşad Babəkin qətl səhnəsini özünəməxsus bir orijinallıqla təsvir etmişdir. Xəlifə Mötəsimin hökmü ilə cəlladbaşı Məsrur zəncirlənmiş qəhrəmanı qılıncla doğramaq istərkən Babək gözlənilmədən məğlubiyyəti qələbəyə çevirir və o, düşmənə meydan oxuya-oxuya deyir:

"Cəllad gözümü bağlama! Mən son nəfəsimdə bu dünyaya, bu dünyadakı doğma Odlar yurduma baxa-baxa ölmək istəyirəm!"

Müəllif, Babəki oxucusunun gözündə daha da yüksəltməkdən ötrü düşməni Xəlifə Mötəsimin bu səhnə qarşısında necə sarsıldığını göstərir, onun dililə belə deyir: "Bağışlanmalı şeytan idi, ancaq gecdir!"

Roman boyu Babək, zülmətlərə işıq saçan bir həqiqət qılıncı kimi parlayır, qürur, qəhrəmanlıq duyğuları aşılayır. Oxucu romanda təsvir edilən sarsıdıcı səhnələrlə tanış olduqca belə bir qənaətə gəlir ki, mən də gərək Vətəni Babəkim kimi sevəm! Mən də gərək doğma torpağı yadelli işğalçılardan Babək kimi qoruyam! Mən də gərək lazım gəlsə azadlıq və istiqlaliyyət uğrunda gedən mübarizələrə sinə gərəm!

Cəsarətlə deyə bilərik ki, yazıçı Cəlal Bərgüşad ağır, gərgin tədqiqat və yaradıcılıq axtarışları, sənətkar təxəyyülünün gücü sayəsində Babək Xürrəmini – nəsillərə nümunə olan bu qəhrəmanını "Siyrilmiş qılınc" romanı ilə yenidən dünyaya gətirmişdir. Cəsarətlə deyə bilərik ki, Cəlal Bərgüşad canı qədər sevdiyi doğma yurdu Azərbaycanda Babəkə əbədi bir abidə ucaltmışdır.

**ZİYA BÜNYADOV**
*Sovet İttifaqı Qəhrəmanı,*
*Azərbaycan SSR EA-nın akademiki,*
*Respublika Dövlət Mükafatı laureatı.*

I

## ŞİRİN CƏHƏNNƏM

*Zahirən əsrarlı görünən dəbdəbəli saraylarda xidmət edənlərə qibtə etməyin! Onlar, sanki hər an taxtaları çürümüş gəmi ilə tufanlı dənizdə balıq ovuna çıxırlar. Əgər tale onların üzünə gülsə ovları uğurlu olar, gülməsə gəmiləri ilə birlikdə batarlar.*

Baş məlaikə Hayzurana xatun, Roma imperatoru Neronun[1] anası Aqrippina kimi hökmdarlıq iddiasında idi. O, oğlu Harun ər-Rəşiddən sonra nüfuzuna görə ikinci xəlifə sayılırdı. Rəsmən oğlu xəlifə olsa da dövlət işlərini əsasən o özü aparırdı. Xəlifənin başı, Neron kimi ovdan, kefdən ayrılmazdı. O, hər gün Altun sarayındakı Qızıl ağacın altında dəbdəbəli məclislər düzəltdirər, burada şamların zərif işığı altında yarıçılpaq rəqqasələrlə əylənər, gözəl kənizlərin nəğmələrinə qulaq asardı. Məşuqəsi Qərənfil oxuduqca xəlifə şirin röyalara dalar, özünü hurilərin gül ətirli ağuşunda hiss edərdi. Bu şeiri xəlifə məşuqəsinin dilindən dönə-dönə eşitsə də usanmazdı:

*Ürəyimə bir ox dəydi,*
*Sevgi oxu,*
*Yaşayacam bundan belə,*
*Sənə inam gətirməklə.*

*Qazanmışam*
*Bir məhəbbət əzabını,*
*Bir ürəyin dincliyini*
*İtirməklə.*[2]

Məclislər şən keçərdi. Soyuyub ara verəndə xəlifənin nədimi – ürək dostu şair Əbu Nüvvas[3] xəlifə üçün başqa əyləncə tapardı... Fərraşlar, çaparlar, carçılar cəld atlanıb harın köhlənlərini Bağdadın daş döşənmiş küçələri ilə ora-bura çapardılar. Onların bağırtısı bütün məhəllələri ayağa qaldırardı:

– Camaat, eşidin, bilin, böyük və ədalətli Xəlifə Harun ər-Rəşid ova çıxacaq! Heç bir Allah bəndəsi küçələrdə görünməsin!

Xəlifə Harun ov paltarını geyib hind səfirinin ona bağışladığı şirboğan Seyyuri itini yanına salar, çiynində ağ şahin, bər-bəzəkli Qara atına minərdi... Kim idi çaparların, fərraşların və carçıların hay-küyünə, hədə-qorxusuna baxan? Bütün Bağdad şəhəri Babil bataqlığına şir ovuna gedən Xəlifə Haruna tamaşa eləyərdi. Darvazalardan və pəncərələrdən neçə qaraçadralı, neçə üzü qızıl rübəndli baş küçələrə tərəf uzanardı, neçə parlaq qara göz gizlicə xəlifəyə baxardı. Çoxları deyərdi:

– Mindiyi at deyil, Allahın töhfəsidir. Bir şəhərin qiyməti var!

Tamaşaya duranlar xəlifədən daha çox onun Qara atına baxardı. Qədim Sasani padşahları kimi Xəlifə Harun da atını zərzibaya tutdurmuş, yalına və quyruğuna xına qoydurmuşdu. Atın yalı elə bil qız teli idi. Qızıl yəhərin qaşında daşqaşlar bərq vururdu. Üzəngi də qızıldan idi. Atın cilovu nadir mirvarilərlə, incilərlə bəzədilmişdi. Qara at çilçıraq kimi alışıb-yanırdı. Əcnəbi tacirlər mübahisə edirdilər:

– Deyirsən, yəni bu at cənab Əlinin çəpgöz Dül-Dülündən yaraşıqlıdır?

– Görmürsən? O ki, göz qabağındadır.

– Bu atı bu daş-qaşlarla bazara çəksələr kimin pulu çatar ona?

– Heç Qara ata Bağdadın qul taciri Fənhas da yaxın düşə bilməz! Süqüləbd qul bazarında bu ata azı on min qul verərlər...

Neçə gün, neçə gecə Babil bataqlığının yaxınlığında, Savadın qoruqlarında ağ çadırları külək yellədərdi. Sürükçülər ov itlərini bataqlığa qısqırdıb hay-küylə vəhşi şirləri qovardılar. Şirlər tora, dərin lağıma düşərdi. Lağımda çapalayan qəzəbli şirlərin üstünə neçə ox birdən yağardı. Şirlər gücdən düşdükcə Xəlifə Harun xüsusi nəşə duyardı. Seyyuri cəld lağıma atılıb şirin boğazından yapışar, ovu Harunun ayaqları altına atardı.

Altun sarayında söz-söhbət ancaq xəlifənin uğurlu ovundan, onun istəkli məşuqəsi Qərənfillə musiqili çadırda əylənməsindən, nədimi Əbu Nüvvasın ov zarafatlarından gedərdi.

Sarayda nəql edirdilər ki, guya Babil bataqlığına çatanda şair Əbu Nüvvas lovğalanıb atının cilovunu buraxır və ox kimi xəlifənin böyründən ötüb keçir:

– Hm!.. Mənə çatan igid istəyirəm, – deyə Əbu Nüvvas Xəlifə Haruna göz vurur: – Harda qaldınız? Arxada qalan şirə qismət olar.

Xəlifə Harun hiss edir ki, Əbu Nüvvasın kefi yuxarıdır. Ona bənd olmur. Hətta dalınca at salmaq istəyən ovçulara da acıqlanır:

– Şairlə işiniz olmasın! İnciyər bizdən. Ovda belə şeylər olar, bura Altun sarayı deyil.